# Frans Kafka: "Pis yaxşını ilk baxışdan tanıyır, amma yaxşı pisi yox"

## "Mavi Oktava Gündəlikləri"ndən seçmələr



Səkkiz dəftərdən ibarət "Mavi Oktava gündəlikləri" Franz Kafkanın 1917-1919-cu illər arasında yazdığı gündəliklərdir. Kitab Kafkanın ölümündən (1924-cü il - red.) 24 il sonra - 1948-ci ildə işıq üzü gördüyü üçün adı kitabın tərtibatçısı və Kafkanın yaxın dostu Maks Brod tərəfindən qoyulub. Kitab dünya ədəbiyyatında "Günahın, Əzabın, Ümidin və Həqiqət yolunun refleksiyası" kimi təqdim edilir. Kitabın "Goodreads" saytında yer almış seçilmiş hissələrini təqdim edirik.

* * *

İçindəki hislər şeytani təlqinlərlə yaxşının surətinə bürünür bəzən, onun görünüşünü mənimsəyir. Hətta bəzən daha da irəli gedərək, özünü




tamamilə onun vücudunun, daha dəqiq desək, dərisinin içinə yerləşdirir. Əgər mən bu həqiqət üzərində uzun müddət düşünməmiş olsaydım, bu halın baş verə biləcəyindən bixəbər qalsaydım, şübhəsiz, mən də bu tələyə düşərdim. Çünki belə bir "Yaxşı" surətə ehtiyacı olmayan həqiqi bir yaxşıdan daha inandırıcı, daha yoldan çıxarandır. İndi mən bunun mövcudluğunun fərqindəyəm. Özünü məndən gizlədə bilməsə, nə olacaq?! Bəs, birdən kimliyini gizləmək üçün daima dondan-dona girən şeytan əməli məni tamamilə bu saxta yaxşının içinə çəkərsə?! Ya da onsuz da anadangəlmə özünü iyrənc bir məxluq kimi qəbul və təqdim edən mən hər tərəfimə batan bu iynə uclarının təşviqi ilə bu Yaxşının içinə zorla salınsam, ona çevrilməyə başlasam, onda necə?! Bəs, bundan xəbər tutan əsl Yaxşı dünyadakı bütün canlılardan daha güclü və daha iri olan pəncələri ilə belə bir saxtakarlığa boyun əydiyim üçün üzərimə hücum çəkərsə, onda necə?! Onda gediləcək yol məlumdur. Bir addım geri çəkiləcək və bu sonu mənim qərar verməyimi gözləyən Pisin hamıya açıq olan qapısından içəri keçəcəm, səssizcə və dərin kədərlə!

* * *

Təmiz vicdan sahibi olmaq elə Pisin özü olmaq deməkdir. Təmiz vicdan dünyada mübahisəsiz zəfər qazanmış nadir məfhumlardandır. Hamı sahib ola bilmir, amma təmiz vicdana sahib olan heç kim başqa heç bir məsələdə tükünü də tərpətməz. Çünki özünə tam toxunulmazlıq alıb.

Vicdanı təmiz olanlar kiminsə qarşısında özlərini əsla cavabdeh hiss etməz, nədəsə məsuliyyət daşımazlar. Halbuki yaxşılar... Onlar haqqı tapdalanmış bütün insanların qarşısında özlərini günahkar hiss edirlər. Özlərini bağışlatmaq, işləmədikləri günahı təmizləmək üçün axıracan qədər mübarizə aparırlar. Onlar ömür boyu çiyinlərində bütün dünyanın hüquqlarını qorumaq, bütün kasıbların xoşbəxtliyi üçün mübarizə aparmaq məsuliyyətinin ağırlığını daşıyırlar.

* * *

Bir zamanlar xüsusi iş rejimi və hədəfləri olan şərəfsizlər birliyi var idi. Daha doğrusu, alçaq deyildilər, mənəviyyatca sıravi insanlar idilər. Sadəcə bu keçici alçaqlıq istəmədən bulaşmışdı onlara, bir-birlərinə vəziyyət nə olursa olsun, dəstək durmaq öhdəliyindən yaranmışdı bu iyrənc keyfiyyət. Məsələn, onların aid olduğu çevrədən kimsə yad birinə, ya da başqa cəmiyyətdən olana nəsə zərər yetirir, pislik edir, onu bədbəxt, şikəst qoyursa, dərhal onun davranışı şərh edilirdi. Amma necə şərh edilirdi. Onlara görə, əslində, cəmiyyətə aid heç kimdə "alçaq davranış" ola bilməzdi. Yanlış davranışını birlik içində etiraf edən kimdirsə, ona nə yolla olursa-olsun, haqq qazandırılırdı. Belə ki, əslində, onun hamıya görə, onsuz da "təbii" olan davranışı şərh olunur və təxminən belə bir nəticə çıxarılırdı: "pisniyyətli, alçaqca bir cəhd yoxdur. Bütün cəmiyyətlərdə bu kimi hallar var, bunlar tez-tez müşahidə olunur. Əgər insan bunu özünə dərd eləyib, etiraf edirsə, deməli, o yüksək insani keyfiyyətlərə malikdir. Bunun üçün özünə əziyyət vermə. Yəni, hər insanın başına gələ bilər, olduqca təbiidir. Necə davranmalısansa, elə də davranmısan. Əgər başqa cür addım atsan, bu həqiqətən anlaşılmazdı. Sadəcə zaman doğru olmayıb, əsəblərin yerində olmayıb o qədər. Özünü ələ al və məntiqli davranmağa çalış". Beləcə bir-birlərinə dəstək olur, birlik üzvlərinin öhdəsinə düşən işin altından "şərəflə" çıxırdılar. Halbuki nə qədər möhkəm olursa olsun, cənnətin qapısına qədər gəlmiş hər şey ən xırda zərrələrinə ayrılıb, getməli olduğu yerə gedəcəkdi. Onlar da bu sonsuz gücün qarşısında dözməyib, qaya parçası kimi parçalanacaq, layiq olduqları yollara üz tutacaqdılar.

* * *

İnsan davranışlarının başqa insanlar tərəfindən mühakimə edilməsi həm həqiqətdir, həm də mənasız fəaliyyətdir. Yəni əvvəlcə həqiqətdir, çünki hamının firavanlığı naminə davranışlar mühakimə edilməli, amma sonrakı mərhələdə bu olduqca mənasızdır, boşdur. Sağ qapıdan kiminsə dostları, ailəsi ilə toplandığı otağa girib, son söz sahibinin dediklərini əzbərləyib, sonra sol qapıdan çıxıb bu sözü orada gözləyənlərə çatdıraraq, problemi həll edirlər, başqa sözlə, öz "qərarlar"ını açıqlayırlar. Deyilən sözün, baş verən hadisənin, cinayətin mühakimə etməsi lazımıdır, amma ittiham kürsüsünün nə qərar verdiyi mənasız və əhəmiyyətsizdir. Əgər kiminsə həqiqəti və yanlışı sözün əsl mənasında mühakimə edib, ittiham etmək gücü olsaydı, onda bütün hakimlər yekun qərarı verən "ailələrin", "birliklərin" üzvü olmalı idi.

* * *

Dünyanın kirinə-pasına bulaşmış gözlərlə baxdıqda bir tuneldə qəzaya düşmüş qatarın yolçularına oxşayırıq. Qəza yerindən tunelin nə çıxışında, nə girişində işıq görünmür. Bəlkə çıxışda xırda bir işıq var, amma onu sezmək üçün gərək baxışların daimi axtarışda olsun. Əslində, bura elə bir yerdir ki, girişin-çıxışın harda olduğu, hətta ümumiyyətlə, olub-olmadığı da məlum deyil. Bunlar belə yerdə danışılası şeylər deyil. Bəşəriyyətin tarixi bir yolçunun iki uzun addımı arasında keçən andır.

* * *

Belə nadir, əsrarəngiz gözəllikdə səhərlər çox az olur. Bu gün də elə səhərlərdəndir. İnsan qeyri-adi gözəlliklə göz-gözə gələndə xatırlamaqdan aciz qalır. Özünü, adını, peşəsini, hədəfini çox şeyi unudur. Xüsusilə də, həmin anın xəyalını quranda demək üçün hazırladığı sözləri də. Belə anda hər şeyi xatırlamaq olmur. Onu məhv edə biləcək gücümüz olsaydı əgər, arzu və məqsədlərimizə tərs düşdüyü üçün dünyanın birmənalı şəkildə nəzərimizdə pis olması, bizim mənafeyimizə xidmət etməməsi ilə yanaşı, belə gözəlliklərdən məhrum olması bizi haqlı tərəf kimi təqdim etmək üçün tutarlı səbəb olardı. Amma mümkün deyil. Çünki dünya sadəcə bizə - bir qrup insana pis görünür, ikincisindən isə - dünyanı yox edə biləcək gücdən - biz məhrumuq. Dünyanı biz məhv edə bilmərik, çünki hər şeydən azad, heç nəyə və heç kimə bağlı olmayan, harasa, nəyəsə birləşməyən bu dünyanı biz yaratmamışıq. Biz sadəcə dünyanın gözü ilə baxsanız, yolunu azıb, bu dünyanın içinə düşmüş və bəyənməsə də, orada yaşamalı olan məxluqlarıq. Bəlkə də, yolumuzu azmağımızın səbəbi də nə zamansa ona yaradıldığı yerdən baxıb, heyran olmağımızdır. Bəlkə də, başqa bir yerdən baxmaq ehtimalı olsaydı... Bu dünya elə bir şeydir ki, onda yaşaya-yaşaya ondan imtina etməklə onu yox etmək mümkün deyil, sadəcə azıb düşdüyün yolu sonuna kimi getmək lazımdır. Bu dünyanın qəfəsində sonsuza qədər azmağı seçməklə. Nə zamansa səni addım-addım izləyən bu dünyanın özünü də bu yolda, bu qəfəsdə azdırmaq ehtimalı, gözəl səhərləri qəfəsdən izləyə biləcəyimiz günlərin sayının artması ümidiylə.

Bizim üçün artıq dəqiq olduğu şübhə doğurmayan iki həqiqət var: Elm ağacı və Həyat ağacı. Başqa sözlə, inkişaf edən məmləkətlərin həqiqəti və yerində addımlayan diyarların həqiqəti. Birincisində, Yaxşının özünü Pisdən fərqləndirmək imkanı və bacarığı var, ikincisi isə Yaxşının özündən başqa bir şey görmür. Birincilərdə həqiqətin nə olduğunu görməyə icazə var, ikincilərdə bu səthidir, əslində, bircə həqiqət var. Bu isə kədərlidir. Birincilərdə həyat yaşanılan ana aiddir, ikincilərdə sonsuzluğa.

* * *

11 fevraldır. Rusiyada möhtəşəm barış günü, sülh anları. Böyük yanğından bizim keşişin də evi xilas olub, amma bu onun dindar olması qarşılığında layiq görüldüyü İlahi mükafat deyil, evinə bir ziyan dəyməsinə imkan verməməyi qarşısına məqsəd qoymasının nəticəsidir. Ətrafında baş verən hər şeyə, yeni gələn, yerini dəyişən, yox olmağa hazırlanan hamıya göz qoyan, hadisələrin gedişini anbaan müşahidə edə bilən, müəyyən mənada dünyaya ən çox uyğunlaşan adamdır. Müşahidə bacarığı yüksək olan insan dünya ilə birgə yaşayan, canlı olan hər şeyə bağlanan, zəmanə küləklərinə uyğunlaşa biləndir. Mən?! Yox, mən heç vaxt belə biri olmaq istəməmişəm. Bəlkə də, buna da qabiliyyətim çatmazdı. Amma yox, heç istəməzdim də. Mənim nəzərimdə yaşamaq demək həyatın, dəyişən, mübarizə aparan, irəliyə doğru addımlayan şeylərin arasında olmaqdır sadəcə. Həyata, ətrafımda baş verənlərə yaradıcı baxış sərgiləyə bildiyim hər yerdə mənim üçün həyat var. Bu nəhəng Dünyanın özü belə ancaq yaradıldığı yerdən və yaradıldığı gündən baxa bilmişlərin gözündə yaxşıdır. Çünki sadəcə oradan baxıb "Hə, hə belə yaxşıdır" deyiblər. Əminəm ki, yaradarkən başqa bir prizmadan baxılsaydı, bu dünyanın üstündə hələ çox işləməli olacaqdılar.

**İngilis dilindən tərcümə edən:**
**Elcan SALMANQIZI**